**Yem əlavələrinin qeydiyyatı üçün tələb olunan sənədlər**

Qeydiyyat ilə bağlı təqdim edilən ərizədə aşağıdakı məlumatlar qeyd olunmalıdır:

1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar:
   1.1. ərizəçinin müraciət etdiyi inzibati orqanın adı;
   1.2. ərizəçi fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar;
   1.3. ərizə hüquqi şəxsin adından verildikdə onun adı və hüquqi ünvanı;
   1.4. tələbin qısa məzmunu;
   1.5. ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası;
   1.6. hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin möhürü;
   1.7. ərizəyə əlavə edilmiş sənədlərin siyahısı.
2. məhsulun adı və əmtəə nişanı;
3. məhsulun emal olunduğu obyektin adı və ünvanı;
4. mənşə ölkəsi.
5. Ərizəyə aşağıdakı sənədlər və məlumatlar əlavə edilir:

5.1. idxal edilən məhsula münasibətdə mənşə sertifikatı və səlahiyyətli dövlət qurumu tərəfindən verilmiş təhlükəsizliyini təsdiq edən sənəd;

5.2. eynilik və saflıq xüsusiyyətləri, eyniləşdirmə və saflıq analizi metodları;

5.3. məhsulun tərkibi, keyfiyyəti və təhlükəsizliyi üzrə tədqiq (sınaq) protokolu və tədqiqin (sınağın) aparılması metodikası;

5.4. yem əlavələrinin heyvanlar üzərində tətbiq edilərək istehsalat sınağından keçirilməsini təsdiq edən sənəd;

5.5. istehsal və ya emal prosesinin təsviri;

5.6. saxlanma şərtləri və yararlılıq müddəti.